UOT 94(479.24); UOT 94

ELLADA KƏRİMOVA
Milli Aviasiya Akademiyasının dosenti,
tarix üzrə fəlsəfə doktoru
ellada64.karimova@gmail.com

HEYDƏR ƏLİYEV SSRİ RƏHBƏRLƏRİNDƏN BİRİ KİMİ

DOI: https://doi.org/10.36719/2708-065X/107/70-74

Tarixdə və dünya siyasətçiləri ilə adı yanaşı çəkilən Heydər Əliyevin 1982-1987-ci illərdə SSRİ-də siyasi hakimiyyətin piramidasında ən uca vəzifələrdən birindəki fəaliyyti ilə bağlı bəzi məqamların araşdırılması olduqca aktualdır. 1982-ci ildə Sov.İKP MK-nın Baş katibi olan Y.Andropov Heydər Əliyevi SSRİ Nazirlər Soveti sədrinin birinci müavini təyin etdi. O, Sov.İKP MK Siyasi Bürosunun üzvü olmaqla sovet liderlərinin dar dairəsinə daxil oldu. Heydər Əliyev M.Qorbaçovdan çox fərqlənirdi. Bu da M.Qorbaçovun və o vaxt partiyada əslində ikinci şəxs olan Y.Liqaçovun Heydər Əliyevə münasibətlərinin qibtəyə çevrilməsi səbəblərindən biri idi. Siyasi rəqiblərinin haqsızlığına məruz qalsa da, sonda qədirbilən xalqı tərəfindən sevilən Heydər Əliyev öz vətənində yenidən siyasi hakimiyyətin zirvəsinə yüksəldi, müstəqil Azərbaycan dövlətinin qurucusu və qoruyucusu oldu.

Açar sözlər: Heydər Əliyev, SSRİ, siyasətçi, lider, Moskva, BAM-ın tikintisi.

Giriş. Heydər Əliyev fenomeni haqqında yazmaq və danışmaq eyni zamanda həm sadə, həm də çətindir. Heydər Əliyevin həyatını öyrəndikcə, onun xüsusi missiya üçün dünyaya gəlmiş bir insan olduğu aydın hiss olunur.

Bu görkəmli şəxsiyyətin, bu siyasətçinin həyatı o qədər parlaq epizodlarla, faktlarla zəngindir ki, yəqin ki, minlərlə nitq, yüzlərlə kitab üçün kifayət qədər material var. Bu baxımdan hesab edirik ki, Heydər Əliyevin siyasi fəaliyyətinin ayrı-ayrı dövrləri, illəri haqqında faktların, fikirlərin və materialların araşdırılması bundan sonra da davam edəcək və bu nəhəng siyasət xadiminin tarixi xidmətlərinin xalqımız üçün yaratdığı zəngin irsə bizdən sonra gələn nəsillər də yüksək dəyər verəcəklər.

Ulu öndər Heydər Əliyevin Azərbaycana rəhbərliyinin hər iki dövründən bəhs edən tədqiqatlar nə qədər çox olsa da, indiyədk elmi dövriyəyə daxil edilməmiş məqamlar və məsələlər olanlardan da çoxdur, desək, yəqin ki, yanılmarıq.

Bu gün SSRİ adlanan sovet imperiyasının 70 illik mövcudluğu dövründə adları tarixə düşmüş dövlət xadimləri ilə adı yanaşı çəkilən Heydər Əliyevin 1982-1987-ci illərdə siyasi hakimiyyətin piramidasında ən uca vəzifələrdən birindəki fəaliyyti ilə bağlı bəzi məqamların araşdırılması olduqca aktualdır. Bu fakt da qeyd edilməlidir ki, hər biri təkcə Heydər Əliyevin deyil, həm də bütün xalqımız üçün taleyüklü ola biləcək belə məqamları qaçırmamaq vacibdir.

Ölkəni düşdüyü çətin durumdan çıxarmaq uğrunda mübarizə. 1982-ci ildə Brejnevin ölümündən sonra Sovet İttifaqında hakimiyyətə gələn Y.Andropov elə birinci plenumda Heydər Əliyevi Siyasi Büro üzvlüyünə namizədlikdən üzvlüyə keçirdi və onu SSRİ Nazirlər Soveti sədrinin birinci müavini vəzifəsinə təyin etdi. Heydər Əliyev müsəlman respublikasından N.Muxitdinovdan sonra belə yüksək zirvəyə çatan ikinci lider, ilk azərbaycanlı idi.

Xalqımızın Ümummilli liderinin 100 illik yubileyi ərəfəsində müxtəlif portallarda Heydər Əliyevin 1982-1987-ci illərdə Moskvada işlədiyi dövrdə bilavasitə onu əhatə edən, onun köməkçiləri işləmiş, müxtəlif tədbirlərdə, ölkə daxilində və xaricə səfərlərdə təhlükəsizliyinə cavabdeh olub onu müşayiət edən insanların xatirə və rəyləri geniş yayılmışdı. Bu yazıların hamısında Heydər Əliyevin SSRİ Nazirlər Soveti sədrinin birinci müavini vəzifəsində qazandığı nailiyyətlərdən, ən çətin iqtisadi şəraitdə necə uğurlar qazanmasından, BAM-a necə rəhbərlik etməsindən, M.Qorbaçovun haqsız tənqidinə məruz qalmasından, Sovet İttifaqına rəhbərlik etmək şansından danışılır və bu nəhəng siyastçiyə "fenomenal şəxsiyyt", "əfsanəvi siyasətçi" və digər fəxri adlar səslənirdi [4].

Heydər Əliyev haqlı olaraq SSRİ-nin ən parlaq karyeralı liderlərindən biri hesab olunurdu. 1982-ci ildə Sov.İKP MK-nın Baş katibi olan Y.Andropov Heydər Əliyevi SSRİ Nazirlər Soveti sədrinin

birinci müavini təyin etdi [4]. Beləliklə, o, Sov.İKP MK Siyasi Bürosunun üzvü olmaqla sovet liderlərinin dar dairəsinə daxil oldu.

Həmin dövrdə Heydər Əliyev SSRİ-nin 12-dən çox nazirliyinə nəzarət edirdi: maşınqayırma, ticarət, yüngül sənaye, bütün növ nəqliyyat və rabitə sahələrinə, mədəni-maarif və s. sahələrə də rəhbərlik edirdi. Bundan əlavə, Heydər Əliyevə Dövlət Televiziya və Radiosu, Qoskino, Dövlət Nəşriyyat Komitəsi, İdman Komitəsi, SİTA, Dövlət Arxiv və Müəllif Hüquqları Agentliyinin məsələlərinə nəzarət həvalə edilmişdi [6]

Heydər Əliyev 1984-cü ildən sovet maarif islahatı üzrə komissiyaya rəhbərlik edirdi. O, başçılıq etdiyi sahələrdə bir sıra tutumlu layihələrin icrasına nəzarət edirdi. SSRİ Nazirlər Sovetinin və o dövrün Sov.İKP MK Siyasi Bürosunun onlarla ən mühüm qərarlarının altında Heydər Əliyevin imzasına rast gəlinirdi.

Məsələn, baş nazirin müavinlərinin və bir sıra nazirlərin daxil olduğu Nazirlər Şurasının Xüsusi Komissiyasa Heydər Əliyev rəhbərlik etdiyi illərdə praktiki olaraq Nazirlər Sovetinin rəhbər orqanına çevrildi və burada Sovet İttifaqının təsərrüfat idarəçiliyinin bir çox aktual məsələlərini həll edilir, hesabatlar müzakirə edilir və sənaye rəhbərlərinə tapşırıqlar verilirdi. Onu bəzən "ikinci Siyasi Büro" da adlandırırdılar. Bundan əlavə, Heydər Əliyev xarici iqtisadi əlaqələr sistemində iştirak etmiş, SSRİ-nin Asiya və Yaxın Şərq istiqamətlərində beynəlxalq əlaqələrində aparıcı rol oynamışdır.

Siyasi rəqiblərin böyük şəxsiyyətə qibtə etmələri. Ümumiyyətlə, 1980-ci illərin ortalarında Heydər Əliyev Sovet İttifaqının ən populyar və iddialı siyasətçilərindən birinə çevrildi və iqtisadiyyatın idarə olunması sistemində əsas rol oynadı. Bütün bunlar M.Qorbaçovun və Y.Liqaçovun qısqanclıq və düşmən münasibətinə səbəb oldu. Heydər Əliyev 1987-ci ildə "səhhətinə görə təqaüdə çıxdığına görə" Siyasi Bürodan uzaqlaşdırıldı [7, c.118].

1986-cı ildə Heydər Əliyev SSRİ Nazirlər Sovetinin Sosial İnkişaf üzrə Bürosunun sədri vəzifəsini tutdu. Büronun fəaliyyəti 12 nazirlik, idarə və komitəni əhatə edirdi. Əliyevin bürodakı müavinlərindən biri Aleksey Kosıqininin və Nikolay Tixonovun keçmiş köməkçisi İqor Prostyakov, Yuri Soloduxin və digər nazirlər, komitə sədrləri daxil idi [9, c.41].

O illərdə sovet rejimi piramidasında yüksək postda olan bir qrup dövlət xadimləri bildirirlər ki, Heydər Əliyevin Siyasi Büroya daxil edilməsi və Moskvaya gətirilməsi məsələsi hələ Leonid Brejnevin sağlığında razılaşdırılmışdı.

Heydər Əliyev həddindən artıq mərkəzləşdirmənin əleyhdarı idi. O, milli dövlətlərin, eləcə də müttəfiq respublikaların rolunun artmasının tərəfdarı idi. O, hesab edirdi ki, sonuncuların öz inkişaf məsələlərini müstəqil həll etməkdə səlahiyyətləri və imkanları çox məhduddur.

Heydər Əliyev M.Qorbaçovdan çox fərqlənirdi. Bu da M.Qorbaçovun və o vaxt partiyada əslində ikinci şəxs olan Y.Liqaçovun Heydər Əliyevə münasibətlərinin qibtəyə çevrilməsi səbəblərindən biri idi.

Heydər Əliyev postunda qalsaydı, SSRİ dağılmazdı. Heydər Əliyevi yaxından tanıyanların onun yüksək idarəçilik və rəhbərlik təcrübəsində xüsusi dəyərləndiyi xüsusiyyətlərdən biri də ittifaqın hər yerindən gələn məktub və müraciətlərə həssaslıqla yanaşması idi.

O illərdə siyasi dairələrdə belə bir fikir də səslənirdi ki, Y.Andropov gələcəkdə Heydər Əliyevi özünün mümkün davamçılarından biri hesab edirdi və hətta onu SSRİ Nazirlər Sovetinin sədri təyin etməyi plaanlaşdırırdı. Lakin Y.Andropovun vaxtsız ölümü bu planların həyata keçməsinə imkan verməmişdi.

Sovet vətəndaşları arasında ona populyarlıq qazandıran fərqli xüsusiyyətləri insanlarla şəxsi ünsiyyət yaratmaq və problemin öhdəsindən dərhal gəlmək bacarığı idi. Məhz buna görə də onun 1988-ci ildə istefaya göndərilməsi əksər sovet vətəndaşları üçün sürpriz oldu.

Bəlkə də indi bizim üçün bir qədər qəribə səslənsə də, eyni vaxtda həm sadə insanların, həm də partiya elitasının çoxlarının fikrincə, Heydər Əliyev qalsaydı, Sovet İttifaqının dağılması baş verməzdi. Bu barədə rəylər onlarladır [8].

Təkcə yerli deyil, həm də həm də ümumittifaq, eyni zamanda qlobal miqyasda böyük siyasətçi olan 1983-cü ildə Sosialist Əməyi Qəhrəmanı ikinci ulduzu ilə təltif edilmiş Heydər Əliyev 1980-ci illərin ortalarında SSRİ-də super populyarlaşdı. Mətbuat onun haqqında demək olar ki, hər gün yazır,

onu mütəmadi olaraq televiziyada göstərirdilər, mərkəzi mətbuat tez-tez ona səhifə materialları ayırırdı, Moskva ziyalıları ona pərəstiş edirdi, mədəniyyət xadimləri onu görməyə can atırdılar və bilirdilər ki, Heydər Əliyev onların problemlərini mütləq həll edir, ədalətli tələbləri dəstəkləyir [3].

Lakin təəssüflə qeyd etməliyik ki, sovet partokratiyasının ən yüksək eşalonunda Heydər Əliyevin nəinki xeyirxahları, eyni vaxtda əleyhdarları da vardı. Hətta bu gün də çoxları bilmir ki, Heydər Əliyev K.Çernenkonun ölümündən sonra M.Qorbaçovun Sov.İKP MK-nın Baş katibi seçilməsində israrlı olmuşdur. Halbuki özü bu vəzifəni tutmaq üçün M.Qorbaçovdan kifayət qədər bacarıqlı və səriştəli idi [9, c.40]

Lakin yeni lider vəziyyəti başqa cür görürdü. 1985-ci il martın 11-də Siyasi Büronun iclasında K.Çernenkonun ölümündən sonra Sov.İKP MK-nın yeni Baş katibi seçilən M.Qorbaçov gözlənilmədən, demək olar ki, dərhal "köhnə qvardiya"nın nümayəndələrindən qurtulmağa başladı, o cümlədən seçilmək üçün borclu olduğu şəxslərdən [3].

Bəzi tarixçilərin fikrincə, M.Qorbaçov ətrafındakı müstəqil düşünən insanlara dözə bilməzdi. Bir çox faktlar inandırıcı şəkildə göstərir ki, M.Qorbaçovun yenidənqurmasından əvvəl və onun başlanmasından bir müddət sonra Sovet hökumətinin əsas siması, ən parlaq və bacarıqlı şəxsiyyəti məhz Heydər Əliyev idi. Təbii ki, M.Qorbaçov başa düşürdü ki, SSRİ-də nüfuz səviyyəsinə görə Heydər Əliyev ondan çox yüksəkdədir. Bu, yumşaq desək, onu qıcıqlandırdı və sonda dövlətin aşkar mənafeyinə zidd hərəkətlər etməyə məcbur etdi [2, c.324].

M.Qorbaçovun qərəzkarlığının nəticələri. M.Qorbaçov baş katib postuna gəldikdən sonra onun Heydər Əliyevə qarşı hərəkətləri getdikcə aktivləşdi. Xüsusi ilə də Heydər Əliyevin mühüm dövlət tədbirlərində mümkün qədər az görünməsini təmin edir, dövlətlərarası danışıqlar aparmaqda, vaxt xarici səfərlərdə iştirakını məhdudlaşdırırdı.

Bu vəziyyət M.Qorbaçovun çevrəsində daha çox etibar etdiyi Y.Liqaçov və A.Yakovlevin peyda olması ilə ciddi şəkildə mürəkkəbləşdi. Onlar 1980-ci illərin ortalarından və ikinci yarısında Heydər Əliyevin bütün vəzifələrdən istefasına nail olmaq üçün hər şeyi etdilər [3].

Artıq 1985-ci ildən M.Qorbaçov açıq-aydın Heydər Əliyevi SSRİ-nin beynəlxalq siyasəti ilə bağlı məsələlərə cəlb etməyə çalışmırdı. O, hətta Heydər Əliyevi nümayişkaranə şəkildə beynəlxalq siyasət və dövlətlərarası danışıqların aparılması məsələlərindən uzaqlaşdırdı. İndi onu əsasən yalnız protokol tədbirlərinə dəvət edirdilər [9, c.40].

Heydər Əliyev 1984-cü ilin martında Suriyaya səfərindən sonra yaxşı şəxsi münasibətlər qurduğu Ərəb Sosialist İntibah Partiyasının baş katibi, Suriya Ərəb Respublikasının Prezidenti Hafiz Əsədlə 1987-ci ilin aprelində Moskvadakı görüşdən və danışıqlardan kənarlaşdırıldı. M.Qorbaçov və onun "komandası" tərəfindən ən nümayişkaranə jest 1986-cı il iyulun sonunda Türkiyənin baş naziri Turqut Özalın Moskvaya rəsmi səfəri zamanında da baş verdi [3].

Yeni islahatlara obyektiv qiymət verməyə bacarmış lider. M.Qorbaçovla Heydər Əliyev arasında münasibətlərin soyumasını sənədləşdirərkən etiraf etmək lazımdır ki, bu proses təkcə şəxsi deyil, həm də çox fundamental siyasi ziddiyyətlərlə şərtlənirdi. Heydər Əliyev əmin idi ki, 1985-ci ildə M.Qorbaçovun rəhbərliyi ilə başlanmış dəyişikliklərin heç bir ciddi elmi, siyasi, iqtisadi əsası yoxdur. Onların həyata keçirilməsi üçün yaxşı düşünülmüş strategiya da yox idi [10, c.73].

Bu dəyişikliklər daha çox tələsik həyata keçirilən tədbirlərə bənzəyirdi və buna görə də çox vaxt bir-biri ilə ziddiyyət təşkil edirdi və nəticədə heç bir davamlı müsbət nəticə vermədi.

İqtisadiyyatın yenidən qurulması Sov.İKP MK-da, bütün partiyada və cəmiyyətdə artan siyasi qeyri-sabitlik şəraitində həyata keçirildi. Nəticədə, Heydər Əliyevin qabaqcadan gördüyü və sonrakı hadisələrin göstərdiyi kimi, yenidənqurma "kapitanları"nın heç vaxt cavab vermədiyi siyasi məsuliyyətsizliyin ifrat forması olduğu ortaya çıxdı.

Məlumdur ki, M.Qorbaçovun dövründə həm daxili, həm də xarici siyasətdə çoxlu düzəlməz səhvlərə yol verilmişdir. Bütövlükdə SSRİ-nin, xüsusi ilə də Azərbaycanın iqtisadiyyatı üçün alkoqolizmə qarşı dağıdıcı kampaniyaya nəzər salsaq, bu yanaşmada kıkobud səhv hesablamalar daha faciəli nəticələr verdi.

Beləliklə, bir çox ittifaq respublikalarında həqiqətən partlayıcı vəziyyət yaradan milli siyasətdəki ciddi nöqsanları xüsusilə qeyd etməliyik. 1986-cı ildə Alma-Ata, daha sonra Tbilisi, Fərqanə, Bakı, Novı Uzen, Oş və Baltikyanı respublikalarda baş verən hadisələr sonda Sovet İttifaqını sarsıtdı [8, c.57].

Qazaxıstanın birinci prezidenti Nursultan Nazarbayev demişdir ki, Sov.İKP MK Siyasi Bürosunun rəhbərliyindən yeganə şəxs Heydər Əliyev idi ki, 1986-cı il Almatı hadisələri ərəfəsində Qorbaçovu tələsik qərarlar qəbul etməməyə inandırmağa çalışırdı. O, təqaüdə çıxan D.Kunayevin yerinə Qazaxıstanın başına "idxal edilmiş" liderin qoyulmasının mümkün olmadığını, ancaq yerli liderin irəli sürülməsinin vacibliyini təkid etmişdi. Lakin onlar ona qulaq asmadılar və baş verənlər oldu - qəzəbli insanlar meydanlara, küçələrə çıxdılar və bu, sonda qanlı toqquşma ilə nəticələndi [3].

İttifaqın dağılması prosüsinin son addımları. M.Qorbaçov Sov.İKP MK-nın 1987-ci il yanvarın 27-29-da keçirilmiş Plenumunda artıq SSRİ-nin partiya və hökumət orqanlarında genişmiqyaslı kadr təmizləməsinə başladı. D.Kunayev təqaüdə çıxması ilə əlaqədar Sov.İKP MK Siyasi Bürosunun üzvü vəzifəsindən azad edildi. Tezliklə A.Qromıko və Heydər Əliyev də "getdilər" [10, c.73]. Nəticədə Siyasi Büroda M.Qorbaçovu hakimiyyətə gətirən adamlar demək olar ki, qalmadı.

M.Qorbaçovla Heydər Əliyev arasında çoxdan gözlənilən sonluq 1987-ci ilin oktyabrında baş verdi. Sov.İKP MK-nın 21 oktyabr 1987-ci il Plenumunda Heydər Əliyev Siyasi Büro üzvü, SSRİ Nazirlər Soveti sədrinin müavini vəzifələrindən "azad edildi". Bir il sonra (1988-ci ilin noyabrında) o, həm də SSRİ Nazirlər Sovetinin dövlət müşaviri vəzifəsindən azad edildi. Nəhayət, 1989-cu il aprelin 29-da Heydər Əliyev Sov.İKP MK-nın üzvlüyündən "çıxarıldı" [9, c.58].

Azərbaycan Respublikasının Prezidenti demişdir: "Azərbaycan xalqının faciələri Heydər Əliyevin siyasi hakimiyyətdən getməsindən sonra başlamışdır. 1987-ci ildə istefa verməsindən iki həftə keçməmiş erməni millətçiləri və onların sovet iqtidarında olan himayədarları o vaxtkı Dağlıq Qarabağ Muxtar Vilayətinin Azərbaycanın tərkibindən çıxarıb Ermənistanın tərkibinə verilməsi ilə bağlı məsələ qaldırmışdılar. Şübhə yoxdur ki, əgər Heydər Əliyev hakimiyyətdə təmsil olunsaydı, heç vaxt erməni millətçiləri bu çirkin əməllərə əl atmağa cürət etməzdilər. Həm erməni millətçiləri, həm də ovaxtkı Azərbaycan rəhbərliyində təmsil olunmuş milli satqınlar faktiki olaraq birləşərək Heydər Əliyevə qarşı çirkin şər, böhtan kampaniyası aparmışdılar" [1, s.94-95].

Nəticə. Tarix gec-tez hər şeyi öz yerinə qoyur, hamının layiq olduğu qiymətini verir. M.Qorbaçov və onun "yaxın əhatəsi" o günlərdə düşməncəsinə özlərinə ciddi rəqib saydığı opponentlərinin, o cümlədən də, Heydər Əliyevi ittifaqa rəhbərlikdən uzaqlşdırdıqlarını bayram etsələr də, lakin kökündən yanıldılar. Çünki onlar bu gün milyonlarla insanlar tərəfindən lənətlənirlər. Onlar az vaxtda siyasətdə unudulub getdilər və əbədi yerləri tarixin zibilliyindədir. Ancaq qədirbilən xalqı tərəfindən sevilən Heydər Əliyev öz vətənində yenidən siyasi hakimiyyətin zirvəsinə yüksəldi, müstəqil Azərbaycan dövlətinin qurucusu və qoruyucusu oldu. Bəli, Allahın heç nə əsirgəmədiyi dahi Heydər Əliyev bütün dövrlərdə əlçatmaz zirvədə durmişdur. O, bəşərin fövqünə ucalmış fenomen dövlət xadimi kimi xalqın yaddaşında və Azərbaycan tarixində əbədi olaraq yaşayacaqdır!

Ümummilli liderin siyasət məktəbinin və irsinin layiqli davamçısı İlham Əliyevə əmanət edilmiş Müstəqil Azərbaycan bu gün gün-gündən güclənir və qüdrətini artırır. Bunun ən tutarlı sübutlarından biri 2020-ci ildə 44 günlük müharibədə Azərbycanın parlaq qələbəsi oldu.

ƏDƏBİYYAT

1.Əliyev İlham. İnkişaf məqsədimizdir. Yüz iyirmi səkkizinci kitab. may 2023. Azərnəşr, Bakı: - 2023. - 392 s.

2.Ахундова Э. Гейдар Алиев. Личность и эпоха. Кремлевская пятилетка. 1982-1990. Озан, - Баку: - 2008. - 540 с.

3. Война М.Горбачева против Гейдара Алиева и «тупики перестройки». - https://azerhistory.com/?p=31020 [06.09.2024].

4. Гейдар Алиев: Лидер, который умел видеть проблемы / https://www.pnp.ru/politics/geydar-aliev-lider-kotoryy-umel-videt-problemy.html [06.09.2024].

5. Гейдар Алиев. Как политик становится легендой? / https://aif.ru/politics/world/geydar_aliev_kak_politik_stanovitsya_legendoy [06.09.2024].

6. К 100-летнему юбилею советского и азербайджанского деятеля издана монография «Гейдар Алиев – взгляд из России». https://www.sibupk.su/about_the_university/news/2165/?ID=2165 [06.09.2024].

7. Махмудов Кямал Фатулла оглы. Гейдар Алиев как один из лидеров СССР // Wschodnioeuropejskie Czasopismo Naukowe (East European Scientific Journal) # 7, 2016. с.118-122.
8.Он не допустил бы развала СССР. Соратники и коллеги вспоминают Гейдара Алиева. - https://minval.az/news/123942944 [06.09.2024].
9. Рай Иоганн. Гейдар Алиев и «перестройка» Горбачева // Современная Научная Мысль. Научный Журнал НИИ Истории, Экономики и Права. - М.: НИИ ИЭП, 2015. - № 5. - с.37-57.
10. Черняков Михаил Константинович, Акберов Камал Чолу оглы. Гейдар Алиев - взгляд из России. Издательство: НГТУ, Новосибирск: - 2023. – 212 с.

ЭЛЛАДА КАРИМОВА
доцент Национальной авиационной академии,
доктор философии по истории

ГЕЙДАР АЛИЕВ КАК ОДИН ИЗ РУКОВОДИТЕЛЕЙ СССР

Весьма актуально рассмотреть некоторые моменты, связанные с деятельностью Гейдара Алиева, который упоминается в истории наряду с мировыми политиками, на одном из самых высоких постов в пирамиде политической власти СССР в 1982-1987 годах. В 1982 году Ю. Андропов, бывший генеральным секретарем ЦК КПСС, назначил Гейдара Алиева первым заместителем председателя Совета Министров СССР. Он стал членом Политбюро ЦК КПСС и вошел в узкий круг советских руководителей. Гейдар Алиев сильно отличался от М.Горбачева. Это было одной из причин того, что отношение М.Горбачева и Ю.Лигачева, который был фактически вторым человеком в партии на тот момент, к Гейдару Алиеву стало ревнивым. Гейдар Алиев, любимый своим благодарным народом, несмотря на обиды со стороны политических соперников, поднялся на вершину политической власти на своей родине, стал основателем и защитником независимого Азербайджанского государства.

Ключевые слова: Гейдар Алиев, СССР, политик, лидер, Москва, строительство БАМ-а.

ELLARA KARIMOVA
Associate Professor of the National Aviation Academy, PhD in History

HEYDAR ALIYEV AS ONE OF THE LEADERS OF THE USSR

It is very relevant to examine some points related to the activity of Heydar Aliyev, who is mentioned in history and along with world politicians, in one of the highest positions in the pyramid of political power in the USSR in 1982-1987. In 1982, Y. Andropov, who was the general secretary of the Central Committee of the Communist Party of the Soviet Union, appointed Heydar Aliyev as the first deputy chairman of the Council of Ministers of the USSR. He became a member of the Political Bureau of the Central Committee of the Communist Party of the Soviet Union and entered the narrow circle of Soviet leaders. Heydar Aliyev was very different from M. Gorbachev. This was one of the reasons why the relationship of M. Gorbachev and Y. Ligachev, who was actually the second person in the party at that time, to Heydar Aliyev became jealous. Heydar Aliyev, loved by his appreciative people despite being wronged by his political rivals, rose to the top of political power in his homeland, became the founder and protector of the independent state of Azerbaijan.

Keywords: Heydar Aliyev, USSR, politician, leader, Moscow, construction of BAM

Məqalənin redaksiyaya daxil olduğu tarix: 06 sentyabr 2024-cü il.
Məqalənin çapa qəbul olunma tarixi: 15 noyabr 2024-cü il.
Rəyçilər: t.e.d. Fazil Baxşəliyev, t.e.d. İbrahim Zeynalov.